# BİR TURUN TƏƏSSÜRATLARI...





## "City Sightseeing Baku" - qonaqların rahatlığı

İyunun 12-dən 15-dək ölkəmizdə keçirilən 1-ci Avropa Oyunları xarici turistlərə Azərbaycanı gəzib-görmək, xalqımızın mədəniyyəti, tarixi, incəsənəti, memarlığı, musiqisi ilə tanış olmaq fürsəti verdi.

Qonaqlarımızın Bakıda daha çox hansı məkanlara üz tutduğunu və təəssüratlarını öyrənmək üçün bir istirahət günü şəhər boyunca gəzintiyə çıxdıq. Gəzintimizi dünya miqyasında şəhər turları təşkil edən "City Sightseeing Worldwide" şirkətinin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi əsasında Azərbaycanda yaradılmış nümayəndəliyi olan "City Sightseeing Baku"nun avtobuslarından birində reallaşdırdıq.

Öncə qeyd edək ki, MAN markalı avtobusların marşrutları şəhərin demək olar bütün gəzməli-görməli məkanlarını əhatə edir. Ekskursiyalar zamanı məlumatlar xüsusi sistemlə yaradılmış avadanlıq vasitəsilə 8 dildə (Azərbaycan, rus, ingilis, ispan, alman, fransız, fars və yapon) səsləndirilir. "City Sightseeing Baku" avtobuslarının Azadlıq meydanından başlayan və Heydər Əliyev Mərkəzi-Müasir İncəsənət Muzeyi-Qız qalası-"For Seasons" hoteli-"İçərişəhər" metro stansiyası-Şəhidlər Xiyabanı-Dağüstü Park-Bəhramgurun heykəli-Bayraq Meydanı-Panorama çarxı-"Azneft" meydanı-Kukla Teatrı - Muzey Mərkəzini - ümumilikdə 15 dayanacağı əhatə edən marşurutuna mayın 1-dən etibarən 16-cı dayanacaq da əlavə olunub. Bu dayanacaq Port Baku adlanır.

Bakının tarixi, keçdiyi inkişaf yolu, dayanacaqların əhatə etdiyi məkanlar, ümumilikdə Azərbaycanın turizm potensialı haqqında bilgilər ekskursiyalar zamanı turistlərə təqdim edilən məlumatlar sırasına əlavə edilir.

"City Sightseeing Baku" avtobusları qış mövsümündə hər gün saat 11:00-dan 20:00-dək (yay mövsümündə isə saat 22:00-dək) təyin olunmuş marşrut üzrə 45 dəqiqə intervalla hərəkət edir və hər bir nöqtədə 2-3 dəqiqə dayanır. Şəhər turu üçün əldə edilmiş bileti 24 saat ərzində "hop on - hop off" sistemi ilə istifadə etmək olar. Yəni hər kəs istənilən dayanacaqda düşüb növbəti avtobusla ekskursiyanı davam etdirə bilir.

Qiymətlərə gəldikdə, bildirək ki, şəhərdaxili tur üçün müəyyənləşdirilmiş məbləğ hamı üçün eyni deyil. Burada hər bir kateqoriyaya aid olan insanların imkanları nəzərə alınıb. Belə ki, qiymətlər xaricilər üçün 20 manat, yerli vətəndaşlar üçün 10 manat, 16 yaşına qədər uşaqlar, təqaüdçülər, tələbələr üçün 5 manat, 6 yaşa qədər uşaqlar, əlil insanlar, mətbuat işçiləri, hotel əməkdaşları və turizm şirkətlərinin nümayəndələri üçün pulsuzdur.

> Bir məqamı da diqqətə çatdıraq ki, "City Sightseeing Baku" şirkəti turizm şirkətləri və hotellərlə yaxından əməkdaşlıq edir. Onlar öz qonaqlarına təklif etdikləri paketlərə şəhər turlarını da daxil edirlər.

Bakı şəhərində fəaliyyət göstərən 10-dan artıq hoteldə şəhər turlarının biletlərinin satışı həyata keçirilir. Mütəxəssislərin fikrincə, bu həm hotellər tərəfindən turistlərə göstərilən xidmətin artırılmasıdır, həm də paytaxtımızın qonaqları üçün bir rahatlıqdır ki, bir marşrutla şəhərin bütün görməli yerlərini gəzə bilirlər.



## Bakı haqqında bütün məlumatları burdan əldə etmək olur...

Bakı şəhər turu Azərbaycanın ən böyük meydanı olan Azadlıq meydanından başlayır. Bizim əyləşdiyimiz avtobusda kifayət qədər xarici turist var. Onların əksəriyyətinin üzərindəki vəsiqədən anlamaq olur ki, Avropa Oyunları ilə əlaqədar gəliblər.

Turistlərə Bakı haqqında məlumat verilir, bildirilir ki, ölkəyə qədəm basdığında səni ilk olaraq ölkənin elmi-texniki, sənaye və mədəniyyət mərkəzi olan paytaxt Bakı qarşılayır. Özündə qədimliklə müasirliyi simvolizə edən Azərbaycan paytaxtı turistləri də elə bu xüsusiyyətinə görə cəlb edir. Qala divarları ilə əhatələnmiş İçərişəhər Bakının qonaqlarında xüsusi maraq oyadır. Açıq səma altında yerləşən bu muzey və burada yerləşən Qız qalası (XII əsr) YUNESKO-nun dünya irsi siyahısına daxil edilib.

Daha sonra paytaxtın müasir görünüşü haqqında danışılır. Bildirilir ki, Bakının yeni simvolları sırasında olan 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin keçirildiyi "Crystal Hall" idman-əyləncə kompleksi, məşhur memar Zaha Hadid tərəfindən hazırlanmış Heydər Əliyev Mərkəzinin dalğavari ağ binası, "Fairmont" hotelin yerləşdiyi Alov Qüllələri, 33 mərtəbəli və yelkən formasında inşa edilən "Trump International Hotel & Baku Tower"in yaraşıqlı binasının hər biri bir sənət əsəri, memarlıq nümunəsidir. Şəhərdə "Hyatt Regency", "JW Marriott Absheron Baku Hotel", "Jumeirah Bilgah Beach Hotel", "Grand Hotel Europe", "Four Seasons" kimi məşhur dünya brendlərinə məxsus hotellər var.

Məlumatlar Bakıda yerləşən əyləncə mərkəzlərini və şəhərin yaxınlığındakı turistik məkanları da əhatə edir. Turistlər məhz "City Sightseeing Baku" avtobuslarından öyrənirlər ki, şəhərdə çoxlu sayda müasir ticarət, əyləncə və idman mərkəzləri, kinoteatrlar, konsert və sərgi salonları, muzeylər, parklar var.

Bildirilir ki, paytaxtın ətrafında yerləşən tarixi məkanlara səyahət etmək insana uzun müddət unuda bilməyəcəyi gözəl təəssürat bəxş edir. Şəhərdən 30 km. məsafədə – Suraxanı qəsəbəsində keç-


Qız qalası


Flame Towers


Grand Hotel Europe


Crystal Hall


Four Seasons


Jumeirah Bilgah Beach Hotel

mişin ekzotik abidəsi olan atəşpərəst məbədi "Atəşgah" ölkənin zəngin tarixinin bir səhifəsidir. Bir qədər uzaqda – Bakıdan 60 km. məsafədə yerləşən Qobustan qəsəbəsində dünya mədəniyyətinin çox nadir abidəsi, insanlıq sivilizasiyasının ilk ocaqlarından biri olan Qobustanda insan və heyvanların 4000 qayaüstü rəsm (petroqliflər) və


Qobustan

ulu əcdadlarımızın yaşadığı 20 mağara aşkar edilib. Qobustanda eyni adlı tarixi-bədii qoruq yaradılıb, abidənin özü isə YUNESKO-nun Dünya maddi irs siyahısına daxil edilib.

## Birinə Qobustan, başqasına İçərişəhər daha xoş gəlir


İçəri Şəhər

Qeyd edək ki, xaricilər tur boyunca verilən məlumatları çox diqqətlə izləyirdilər. Bir-biri ilə söhbət edən iki xanıma yaxınlaşıb təəssüratlarını soruşuruq. Polşa Respublikasından gəlmiş könüllü jurnalist Natalya Roslik deyir ki, Azərbaycana gələndən bir neçə gün sonra özü də Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil edilmiş tur vasitəsilə Qobustana səfər edib:

"Tur zamanı bizə verilən məlumatlar əsasında Azərbaycanın necə zəngin və qədim bir tarixə malik olduğunu öyrəndim. Etiraf edim ki, Azərbaycan haqqında ümumiyyətlə məlumatsız idim. Məhz bu tur zamanı əldə etdiyim məlumatlar əsasında ölkəniz haqqında geniş təsəvvürlərim oldu. Bakıda olduğum müddətdə belə turlarda böyük məmnuniyyətlə iştirak edəcəm".

Diqqətimizi kənarda dayanıb şəhərə tamaşa edən və hərdən də gördüklərini bir-biri ilə müzakirə edən üçlük - Slovakiyadan gəlmiş Miroslav və Mişal Gogolalar və Lucici Vuzan-Valoçka cəlb edir. Miroslav deyir ki, İçərişəhərə vurulub. Bu qədim yaşayış məskəninin kiçik dar küçələri, tarixi binaları onda maraqlı təəssüratlar yaradır. Həmsöhbətimizin dediklərindən: "Bu avtobuslarla Bakını artıq ikinci dəfədir gəzirik. Maraqlı turdur, şəhərin demək olar ki, əksər hissəsini əhatə edir. İki gün əvvəl İçərişəhər yaxınlığında düşüb gəzintimizi özümüz davam etdirdik. İndi isə "Eurovision" məkanına - "Kristal Holl"a getmək niyyətimiz var".



## Avtobuslar bir gündə 100-dən artıq insana xidmət göstərir


Azneft meydanı

Biz də "Azneft" meydanında şəhər gəzintimizi yekunlaşdırıb avtobusdan düşürük. Müşahidələrimizə əsasən deyə bilərik ki, "City Sightseeing Baku" avtobuslarına Qız qalası, "İçərişəhər" metrostansiyası və Kukla Teatrı yaxınlığındakı dayanacaqlardan daha çox sərnişin minirdi, elə bu məkanlarda düşənlər də çox olurdu.

Şirkətin baş direktoru Əfsun Əhmədovun sözlərinə görə, "City Sightseeing Baku" avtobusları gün ərzində 100-dən artıq insana xidmət göstərir ki, onun da əksəriyyəti xarici turistlər olur.

Onu da bildirək ki, şəhər turları dünyanın turizm sektoru inkişaf edən əksər ölkələrinin paytaxtlarında, o cümlədən London, Paris, İstanbul, Dubay və digər böyük şəhərlərdə tətbiq edilib və yüksək nəticə əldə olunub. Bu turlar vasitəsilə turistlərdə təkcə bir şəhər deyil, eyni zamanda bütöv bir ölkə haqqında təsəvvür formalaşır.

"City Sightseeing Baku" şirkətinin ekskursiyaları zamanı təqdim edilən mətnlərdə Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti, musiqisi, dünyaşöhrətli bəstəkarları, mətbəxi, turizm infrastrukturu barədə bilgilər yer alır. Bu da təbii ki, sonucda ölkəmizə gələn turistlərin Azərbaycan haqqında daha çox məlumatlandırılmasına xidmət edir. •

Fəxriyyə Abdullayeva







